DOI: 10.36719/AEM/2007-2019/49/113-116
**Aytac Vazeh qızı Tağıyeva**
Bakı Dövlət Universiteti
aytac760@mail.ru

# COĞRAFİYANIN MÜASİR TƏDRİSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ TƏQDİM OLUNMA FORMALARININ MÜXTƏLİFLİYİ

***Açar sözlər:*** *Azərbaycan coğrafiyası, vətənpərvərlik, motivasiya, tədqiqat, qiymətləndirmə, tətbiq, xəritə, təlim, təhsil*
***Key words:*** *Azerbaijan geography, patriotism, motivation, research, evaluation, application, map, training, education*
***Ключевые слова:*** *География Азербайджана, патриотизм, мотивация, исследование, оценка, применение, карта, обучение, образование*

Bu gün təhsil müəssisələrinin qarşısında duran əsas məqsəd savadlı, dünyagörüşlü, yaradıcı, yüksək mədəniyyət, mənəviyyat və vətənpərvərlik hissinə malik olan gənclər yetişdirməkdir. Bu gün deyə bilərik ki, təhsil nəinki ölkədaxili ziyalı mühitin formalaşmasına xidmət edir, uyğun olaraq beynəlxalq aləmdə də ölkənin rolunu müəyyən edən əsas amillərdən biri kimi öz ağırlığını saxlayır. Azərbaycanda dövlət müstəqilliyi qazanıldıqdan sonra bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ardıcıl və məqsədyönümlü islahatlar həyata keçirilir. Azərbaycan Respublikasının təhsil sistemində islahatların apardığı müasir zaman kəsiyində Azərbaycan coğrafiyasına olan münasibət xeyli dəyişmişdir. Beləliklə, Azərbayan coğrafiyası Ümumtəhsil məktəblərinin təkcə VIII sinifində deyil, ayrı-ayrı mövzuların tərkibində VI sinifdən XI sinfə qədər tədris olunur. Bununla da ölkəmizin coğrafiyası şagirdlərə coğrafiyanın müxtəlif bölmələri ilə paralel şəkildə tədris olunur. Bu yeniliyin əhəmiyyəti ondan ibarətdir ki, ölkəmizin təbiəti, təbii ehtiyyatları, əhalisi və iqtisadi inkişaf meylləri vəhdət şəklində varislik prinsipinə uyğun olaraq tədris olunur.

Günümüzdə hər bir sahədə coğrafiyanın payı və əhəmiyyəti vardır. Hər sahədə əhəmiyyət daşıyan coğrafiyanın şagirdlərə müasir və dövrün tələblərinə uyğun olaraq öyrədilməsi lazımdır. Tədris prosesini aktiv şəkildə həyata keçirmək, şagirdlərin fəallığına nail olmaq, onların düşünmə qabiliyyətini inkişaf etdirmək, şagirdlərdə vətənpərvərlik hislərini inkişaf etdirmək, onları yaradıcılığa həvəsləndirmək, coğrafiya fənninin öyrənilməsi əhəmiyyətini dərk etdirmək, biliklərin mənimsənilməsinə və onların praktik olaraq tətbiq edilməsinə maraq yaratmaq hər bir coğrafiya müəlliminin əsas məqsədidir. Bu məqsədlə də müəllim dərs prosesində sərbəst olaraq müstəqil şəkildə coğrafi bilikləri Azərbaycan Respublikasının nümunəsində öyrədə bilər. Belə ki, müəllim dərs zamanı ölkəmizin coğrafiyasına aid şəkillər, Azərbaycan Respublikasının müxtəlif növ xəritələri müəllim tərəfindən nümayiş etdirilməsi tədrisdə əyaniliyi artırar, şagirdləri vətəninin xalqının tarixi, dövlətçilik ənənələri, iqtisadi potensialı, təbii zənginlikləri, milli mənəvi dəyərləri, coğrafiya elminin inkişafında rolu olan alimlər, ümumbəşəri dəyərləri haqqında məlumatlar əldə etməsinə kömək edir.

Müasir coğrafiya dərsi motivasiya, tədqiqat, müzakirə, tətbiq, qiymətləndirmə kimi mərhələlərdən ibarətdir. Bu mərhələlərin hər birində şagirdlərə respublikamız haqqında məlumatları müxtəlif formalarda: mətn, illustarasiyalar – şəkil, rəsm, xəritə, xəritə-sxem, qrafik, diaqram, tapşırıq vermək olar.

Müəllim üçün əsas çətin, həm də maraqlı olan və dərsin bünövrəsini təşkil edən motivasiyadır. Şagirdlərdə idrak fəalığı yaratmaq məqsədilə dərsin məzmunundan yaranan problemin qoyulması motivasiya anlayışının mənasını əks etdirir. Müasir coğrafiya dərsində müəllim motivasiyanı müxtəlif formalarda reallaşdıra bilər:

- Dərsin məzmunu ilə bağlı izah verib və ona uyğun sual verməklə;
- dərsin məzmunu ilə bağlı heç bir izahat, şərh vermədən yalnız sual verməklə;
- iki-üç və daha çox cavabın alınması mümkün olan açıq suallar vasitəsilə,
- açar sözlərdən istifadə etməklə;
- simvollarla-xəritə, əşya, təbiət mənzərəsi, model şəkil, bədii təsvir, sxem, plakat, mahnı, musiqi, tapmaca, bayatı və s. [6].

Motivasiyanı reallaşdıran zaman müəllimin öhdəsinə düşən əsas məsələlərdən biri də Azərbaycan coğrafiyasını ön plana gətirməkdir. Dərs prosesində ölkəmizə aid hekayə, izah, coğrafi mətn, şeir, bayatı verib ona aid suallar qoymaq; Azərbaycan Respublikasının müxtəlif mövzulu xəritələrindən, təbiət şəkillərindən, model, bədii təsvir, sxem, plakatlardan istifadə edərək motivasiya yaratmaq olar.

Dərs prosesində əsas tədris vasitəsi dərsliklər hesab edilir. Coğrafiya dərsliklərində ölkəmizə aid motivasiya müxtəlif formalarda reallaşdırılmışdır. Coğrafiya dərsliklərində Azərbaycana aid motivasiyalara

aid nümunələrə geniş yer verilmişdir. Məsələn VI sinif coğrafiya dərsliyində Azərbaycanda avtomobillərin sayının son dövrlər sürətlə artması barədə izah verilmiş və bunun hansı səbəbdən baş verməsi sualı vasitəsilə motivasiya qoyulub. Dağlar mövzusunda Abdulla Şaiqin köç hekayəsindən bir parça motivasiya kimi verilmişdir. Miqyas mövzusunda Abşeronun xəritəsindən motivasiya kimi istifadə olunmuşdur.[4].

VII sinif coğrafiya dərsliyində İlk coğrafi biliklərin toplanması mövzusunda Qobustan Qaya təsvirlərinin şəkli motivasiya kimi qoyulmuşdur. Azərbaycan Respubilkasının faydalı qazıntıları mövzusunda motivasiyanın şəkil formasından istifadə olunmuşdur. Yağıntıların paylanması mövzusunda respublikamızın ərazisində yağıntıların paylanmasının müxtəlifliyini əks etdirən hekayə motivasiya kimi verilmişdir. [5].

VIII sinif coğrafiya dərsliyində motivasiya kimi respublikamızın gözəl təbiəti, təbii ehtiyatlarla zəngin olması onun öyrənilməsinin əhəmiyyətindən bəhs olunan qısa hekayədən istifadə olunmuşdur. Xəritələrin təsnifatı mövzusunda motivasiyanın şəkil formasından istifadə edərək Azərbaycan Respublikasının atlasının şəkli verilmişdir. Yerin üfiqi və şaquli hərəkət sahələri mövzusunda motivasiya kimi Qız qalasının əvvəllər Xəzər dənizi suları ilə əhatə olunması haqda qısa hekayə verilmişdir. [2].

Tədqiqatın aparılması mərhələsi dərsin ikinci mərhələsidir. Bu mərhələ ilk növbədə problemlərin həlli üzrə irəli sürülən fərziyyələri təsdiq etmək, eləcə də təkzib etmək, habelə qarşıya qoyulmuş olan tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları araşdırmağa, tapmağa imkan yaradan bir mərhələdir. Coğrafiya dərsliklərində tədqiqat sualı mövzunun əvvəlində motivasiyadan sonra verilir. Tədqiqatın aparılması mərhələsinin ölkəmiz üzərində qurulması üçün geniş imkanlar vardır. Belə ki, tədqiqatın aparılması üçün tapşırıqları və bilik mənbələrini Azərbaycan coğrafiyasına aid seçmək olar. Bu mərhələdə müəllim şagirdlərin istifadə etməli olduqları mənbələri şagirdlərə verməlidir. Belə mənbələr Azərbaycanın iqlimi, relyefi, bitki örtüyü, landşaftı və s. mövzular üzərində ola bilər. [8].

Coğrafiya fənninin tədrisində tapşırıqlar daha çox xəritə üzərində verilir. Bundan başqa diaqram, sxem, qrafik, cədvəl, şəkil və s. üzərində tapşırıqlardan da istifadə olunur. Azərbaycanın fiziki xəritəsi, Azərbaycanın oroqrafik xəritəsi, Azərbaycanın torpaq xəritəsi, Azərbaycanın iqlim xəritəsi, iqlim diaqramları, əhali pramidası və müxtəlif xəritələr üzərində tədqiqat aparmaq olar. Ayrı ayrı siniflər üzrə Azərbaycan coğrafiyasının tədqiqat mərhələsində reallaşma dərəcəsini təhlil etsək - Azərbaycan coğrafiyası VI sinifdə 5, VII sinifdə 9, VIII sinifdə 2, IX sinifdə isə 4 tədqiqat tapşırığında verildiyini müəyyən edərik.

Müzakirə aparılması mərhələsi bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin səfərbərliyini tələb edir. Təlim nəticələrinə nail olmaq üçün əsas yol məlumatın (informasiyanın) müzakirəsinin səmərəli təşkil edilməsindən asılıdır.

Müzakirə zamanı istifadə olunan yönəldici sualları qabaqcadan müəllim tərəfindən tərtib edilir. Müəllim məlumatın təşkiletmə formasını işləyir. Bunlar sxem, düstur, qrafik, cədvəl, şəkil, siyahı, kollaj, layihə və s. formalarda ola bilər. Müəllim müzakirənin planını hazırlayarkən Azərbaycan coğrafiyasına aid suallar qoya bilər. Məlumatın müzakirəsinin təşkili zamanı müəllim bütün hallarda şagirdlərin ideya və təkliflərini Azərbaycana yönəldə bilər. Dərsliklərin təhlili zamanı VI sinifdə 10, VII sinifdə 6, VIII sinifdə 8, IX sinifdə isə 4 izah mətnləri Azərbaycan coğrafiyası üzərində qurulmuşdur. [8].

Dərslikdə hər hansı bir mövzu çərçivəsində öyrənilən təlim obyektinin tətbiqinə xüsusi yer verilməlidir. Tətbiq mərhələsi inkişaf mərhələsi ilə sıx əlaqədədir. Bəzən tətbiq inkişafı qabaqlaya da bilər. Tətbiq əsasən çalışmalar, anlamanı və dərketməni müəyyən edən suallar, biliklərin möhkəmləndirilməsinə yönəlmiş çalışmalar, səhvlərin təshihi, əlavə çalışmalar, qazanılmış biliklərin möhkəmləndirilməsi üzərində aparılır. [9].

VI sinifdə 4 mövzuda tətbiq xarakterli tapşırıq əks olunmuşdur. Azərbaycan mənim vətənimdir mövzusunda tətbiq mərhələsində Azərbaycanın müvafiq ölkələrlə sərhəddində yerləşən coğrafi obyektlərin cədvəl şəklində verilməsi tələb olunur. Əhali artımı və məskunlaşma 2010-cu ildə Azərbaycan əhalisinin sayı, doğulanlar, ölənlər, ölkəyə gələnlər və ölkədən gedənlərin sayı verilmiş və əhali sayının necə dəyişməsini müəyyənləşdirmək tətbiq xarakterli tapşırıq kimi qoyulmuşdur. İstehsal və istehlak mövzusunun tətbiq hissəsində Azərbaycanda neft hasilatı, neft emalı və neft məhsullarının verilmiş şəkillərinə uyğun istehsal və istehlak prosesinin şərhi tələb olunur. [4].

VII sinifdə 5 mövzuda tətbiq xarakterli tapşırıq verilmişdir. “Azərbaycan Respublikasının faydalı qazıntıları” mövzusunda tətbiq xarakterli tapşırıq kimi Xəzər dənizi, Kiçik Qafqaz, Böyük Qafqaz, Naxçıvan, Kür-Araz ovalığı ərazisində yayılmış faydalı qazıntıları cədvəl formasında qruplaşdırılır.VIII sinifdə 4 mövzuda tətbiq tipli tapşırıq verilmişdir. [5].

IX sinifdə 3 mövzuda tətbiq tipli tapşırıq verilmişdir. “Azərbaycanın su anbarları və kanalları” mövzusunda biliklərin tətbiq edilməsi və yoxlanması hissəsində Mingəçevir su anbarı haqqında internet mənbələrindən istifadə etməklə məlumat toplamaq tapşırığı şagirdlərdən tətbiq tələb edir. [3].

Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Təkmilləşmək üçün vaxtında öz qüsurlarını və öz nailiyyətlərini aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir. Şagirdlərin təlim fəaliyyətinin qiymətləndirmə və refleksiya prosesləri məhz bu məqsədə xidmət etməlidir. [9].

Fəal təlimin mühüm xüsusiyyətlərindən biri müstəqil təlim (öyrətməyi öyrənmək), müstəqil inkişaf vərdişlərinə yiyələnmək imkanıdır. Qiymətləndirməni həyata keçirərkən müəllim öyrənmə fəaliyyətinin təkmilləşdirilməsi məsələsində Azərbaycan coğrafiyasına aid məlumatları ön plana gətirə bilər. Qiymətləndirməni həyata keçirərkən tapşırıqları ölkəmizə aid verə bilər. Hazırda mövcud olan dərslikləri təhlil edərkən VI sinifdə 3, VII sinifdə 4, IX sinifdə isə 3 öyrəndiklərinizi yoxlayın tipli qiymətləndirmə tapşırığı dərsliklərdə öz əksini tapdığını müşahidə edirik. VIII sinifdə isə belə bir tapşırıq yoxdur . [10].

Müasir coğrafiya dərsində müəllim şagirdlərdə məlumatları təhlil etmək, statistik iqtisadi göstəriciləri müqayisə etmək, müvafiq nəticələr çıxarmaq, texniki-iqtisadi hesablamalar aparmaq, diaqramlar və qrafiklər qurmaq, xəritə oxumaq bacarıqlarının formalaşdırılmasını, ətraf mühitə həssas və qayğıkeş münasibətin, hissi-emosional keyfiyyətlərin yaranmasına xüsusi diqqət etməlidir. Ölkəmizin coğrfiyasına dair biliklər müəllim tərəfindən elə çatdırılmalıdır ki, şagirdlərdə məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi nəzərə alınsın. Onlarda ölkə coğrafiyasına mənimsənilməsində tədqiqatçılıq bacarığı, fikirlərini ümumiləşdirərək təqdimatlar etmək, proqnoz və referatlar hazırlamaq, ölkəmizdə baş verən hadisə və prosesləri təhlil edib qiymətləndirmək bacarıqlarının formalaşdırılması mühüm istiqamətlər kimi diqqət mərkəzində saxlanılmalıdır. Hazırda coğrafiya dərslərində Azərbaycan coğrafiyası haqda biliklərin VI sinifdən XI sinifə qədər dərsin bütün mərhələlərində mətn, izah, şəkil, xəritə, diaqram, sxem, qrafik, tapşırıq formalarında təqdim olunması üçün kifayət qədər imkanların olması müəyyən edilmişdir.

**Ədəbiyyat:**

1. Alxasov O. K. Coğrafiyanın tədrisi metodikası. Bakı: 2013, 205 s.
2. Eminov Z., Səmədov Q., Əliyeva A. Coğrafiya – 8, Ümumtəhsil məktəbləri üçün dərslik, Bakı: Xəzər Etiket, 2015, 191 s.
3. Əlizadə E., Seyfullayeva N., Aktoprak İ., Şabanova Y. Coğrafiya – 9, Ümumtəhsil məktəbləri üçün dərslik, Bakı: Bakınəşr, 2016, 204 s.
4. Əlizadə E., Seyfullayeva N., Rakçayeva İ., Şabanova Y. Coğrafiya – 6. Ümumtəhsil məktəbləri üçün dərslik, Bakı: Bakınəşr, 2013, 160 s.
5. Qəribov Y., Seyfullayeva N., Hümbətova Ş., Şabanova Y., İsmayılova T. Coğrafiya – 7. Ümumtəhsil məktəbləri üçün dərslik, Bakı: Bakınəşr, 2014, 144 s.
6. Seyfullayeva N. Coğrafiyanın tədrisi metodikası.Bakı:EMK, 2011, 492 s.
7. Veysova Z. Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait, Bakı: 2007, 149 s.
8. www.anl.az
9. www.aztehsil.com
10. www.derslik.edu.az
11. www.elibrary.bsu.az

## In the modern education of geography variety of presentation forms of Azerbaijan

**Summary**

The geography that is important in every area today needs to be taught to students in accordance with modern and contemporary requirements. The teacher can teach the geographical knowledge of the Republic of Azerbaijan in the course of the lesson. As a teacher, the teacher's visualization of the geography of our country, as well as the different types of maps of the Republic of Azerbaijan during the classroom, is enhanced in teaching. This information also helps students learn about the history of the motherland, the traditions of statehood, its economic potential, its richness, and its national spiritual values. The knowledge of the geography of our country should be conveyed by the teacher in such a way that the ability to do research, presentations, making forecasts and comments, and analyzing events and processes in our country should be in the center of attention. At present, geography lessons have been identified enough to provide knowledge of Azerbaijani geography from grades VI to XI grade in text, description, pictures, maps, diagrams, graphs, and task forms.

**Разнообразование презентационных форм Азербайджана в современном преподавании географии**

**Резюме**

Географии, которая сегодня важна во всех областях, следует обучать ученикам по современному и в соответствии с требованиями времени. Преподаватель в процессе урока может обучать географическим знаниям на примере Азербайджанской Республики. Так как, демонстрация учителем географических картинок, а так же разнообразных карт Азербайджанской Республики во время урока повышает визуальность обучение. Этот материал так же помогает ученикам приобрести информацию об истории их родины, традициях государственности, экономических потенциалах, природных богатствах, национальных моральных ценностях. Знание географии нашей страны должны быть переданы учителем так, чтобы ниже указанные направления были в центре внимания: исследовательские навыки в освоение знаний о географии страны, умение составлять прогнозы и писать рефераты, анализ событий и процессов происходящий в нашей стране. На данный момент установлено, что есть достаточно возможностей использование текстов, объяснений, карт, диаграмм, схем, графиков на всех этапах урока по Азербайджанской географии с 6-го по 11-й класс.

**Rəyçi: dos.N.S.Seyfullayeva**